İlham Nəcəfov

# Ney musiqi alətinin yayılma arealı və Azərbaycan musiqisində yeri

*Ən qədim musiqi aləti kimi demək olar ki, dünyanın bütün xalqları arasında bir-birindən fərqli ölçü-biçidə geniş yayılmışdır. Ney musiqi aləti, əsasən qamışdan, qarğıdan, bambukdan, daha sonralar müxtəlif meyvə ağaclarından, mis və bürüncdən hazırlanırdı.*

Uzun axtarışlar nəticəsində məlum oldu ki, ifa üçün ən yararlı material qarğı-bambukdur.

"Ney" sözü fars dilində "qamış" deməkdir. Bu sözün aşağıdakı məna çalarları var: (Doktor Məhəmməd Muin "Fərhənge-farsı" IV cild Tehran, 1375, səh.2875-2877):

a) Buğdakimilər fəsiləsindən dənli ot bitkisidir. Latınca adı: "arundo arenaria", fransızca: "arundo". İstiməcaz bitkidir, yarpaqlarından həsir, gövdəsindən səbət toxuyurlar. Ona el arasında "qəsəb", "qab", "qəmiş" deyirlər.

b) "Fişkər" adlı ot bitkisidir. Fransızca adı: "gromi-nees", latınca: "arundo phragmites" (Рычин Ю.В., Сергеева П.В. "Водная и прибрежная флора" Москва, учпедгиз 1939, стр.137).

c) Qamış və qələm. Buna "Xızran" da deyirlər (Сваллоу С., Стефенс М. "Мир ручьев прудов и рек" Москва, АСТ-ПРЕСС 1997, стр.26).

d) Hulqum, mizmar nay.

e) Nəfəsli musiqi aləti üfürülməklə səslənən qədim alət. İranda mədəniyyət tarixində xüsusi əhəmiyyəti olan musiqi alətidir. Ərəblər bu alətə baxıb oxşadaraq öz çalğı vasitəsini yaratmış və buna "gəsəbəun" - demişlər. Bu alət naqisdir.

f) Şəkər qamışı - neyşəklər. Latınca adı: "Saccharum officinarım". Sanskrit dilində: "sarkura", ərəbcə: "sukhar", farsca: "şəkər". Şəkər qamışından istehsal olunan qənd, qədim Avropaya aparılaraq geniş yayılmış və "saccharum" adlandırılmışdır. Təsadüfi deyil ki, dünya xalqları arasında geniş işlədilən "tsikor", "sukar" sözlərinin əslində "şəkər" sözü durur. Şəkər qamışından alınan qənd bütün dünyaya bizim ərazilərdən keçərək yayılmışdır.

Ney aləti yeddi bənddən ibarətdir, sadədir, sədası incədir və xoş ahənglidir. Qədim Misirdə əlli əsr bundan öncə də məlum idi. İndi də Yaxın Şərqin ən əsas nəfəs aləti kimi qalmaqdadır. Çində üç min il bundan qabaq yayılmışdır. Hindistan və Yaponiyada isə bu alətin yaşı iki min ili aşmır.

Orta əsrlər Avropasında əsasən fit tipli alətlər geniş yayılmışdır. Yaxın Şərq xalqlarının ney musiqi aləti Balkan yarımadasından keçərək Mərkəzi Avropaya daxil olmuşdu. Ney musiqi aləti Avropa xalqları arasına yayılaraq hər elin öz səs düzümünə uyğunlaşdırılıb, "flüt" adı ilə yayılmışdır.

Yaxın Şərqdə özünəməxsus qədim mədəniyyəti olan Azərbaycanda musiqinin tarixini araşdıran tədqiqatçılar arxeoloji materiallar içərisində nəfəs alətlərinə də rast gəlmişdilər. Sanballı tədqiqatları ilə Azərbaycan musiqi alətlərini ilk dəfə sistemli şəkildə öyrənən görkəmli alim, sənətşünaslıq elmləri doktoru, professor Səadət xanım Abdullayeva bu məsələyə əsərlərində tez-tez toxunmuşdur (Саадет Абдуллаева "Народный музыкальный инструментарий Азербайджана" Баку, "Елм" 2000, стр. 339-350). Ney musiqi aləti haqqında haqlı olaraq müəllif yazır: "Ney əsasən solo ifaedici alətdir və çobanlar arasında geniş yayılmışdır. Sadə, kiçik həcmli həzin instrumental pyesləri onunla çalırlar. Şən, lirik məzmunlu, nəqarətli xüsusi mahnılar, həzin çobanbayatı və rəqs musiqisi də ifa edirlər.

Çalğı zamanı ifaçı tez-tez qoşasəslilik yaradan aşağı tonlu ünlərdən istifadə edir. Bəzən onun bu səs seçimi təranənin rəsmini müəyyənləşdirir.

Konsert təcrübəsində, xüsusilə xalq çalğı alətləri orkestr və ansambllarında ney alətindən də istifadə olunur."

Ney musiqi aləti ən qədim zamanlardan xalqımızın məişətində, mədəni həyatında və irfan-sakral ayinlərin icrasında geniş istifadə olunmuşdur. XX yüzilliyin əvvəllərindən təkmilləşmiş Avropa alətləri musiqimizə ayaq açdıqca, texniki imkanları qismən zəif olan qədim musiqi alətlərimiz az-az görünməyə başlamışdı. Bu halı dahi Üzeyir Hacıbəyov ürək yanğısıyla təsvir etmişdi (Üzeyir Hacıbəyov "Əsərləri" II cild, Bakı, 1965, səh.234).

"Səscə ən pürməlahət və eşqnigar bir alət varsa, o da neydir ki, mütəəssifən çox az istehsal olunur. Səsi qayət zərif olduğundan yalnız otaq içinə məxsus bir alətimusiqiyyədir."

Ney musiqi aləti göstərilən səbəbə görə uzun illər öz kütləvilik mövqeyini itirmiş, təsadüfdən-təsadüfə araya-ərsəyə gəlmişdi. 1980-cı ildə respublikanın xalq artisti Baba Mahmudoğlu və musiqiçi Abbasqulu Nəcəfzadənin yaratdıqları "Das-

tan" folklor ansamblında ney musiqi alətinin itirilmiş şöhrəti özünə qaytarıldı. Dövlət televiziya və radiosunun saxlanclarında qorunması, efirdə səslənməsi üçün sayı onlarla hesablanan ney musiqi alətinin ifasında xalq mahnı, rəqs və muğamlar lentə alınmışdır.

1985-ci ildə xalq artisti Rafiq Babayev Azərbaycan Dövlət Televiziya və Radio şirkətində təşkil etdiyi saz-folklor ansamblında ney musiqi alətindən solo ifa üçün istifadə etmişdir. İstedadlı bəstəkar Cəmil Əmirovun bəstələdiyi, həmin ansamblın ifa etdiyi "Qış nağılı" saz kompozisiyasında ney və fleyta alətlərindən ilk dəfə ön planda istifadə olunmuşdur. Cəmil Əmirovun "Dəvətnamə", "Oktyabr-70", "Bakı - Azərbaycanın paytaxtı", "Kürsü" sənədli, "Bahar oyunları" cizgi filmlərinə yazdığı musiqi, "Qış nağılı", "Qız qalası" və "Xoş əhval-ruhiyyə" saz kompozisiyaları da ney musiqi alətində daha təsirli səslənmişdir. Daha sonra ney musiqi alətinə diqqət artmışdır. Bəstəkarlar həcmindən asılı olmayaraq, seçdikləri mövzuya müvafiq alətin imkanlarından daha geniş istifadə etməyə başladılar.

Ölməz bəstəkar, xalq artisti, professor Süleyman Ələsgərovun "Xəyala dalarkən" sözsüz mahnısı, "Ay bülbüllər", "Xançoban" adlı xalq mahnılarını ney musiqi aləti üçün işləməsi təqdirəlayiqdir.

Qüdrətli bəstəkar, SSRİ xalq artisti, professor Arif Məlikovun "İki sahil" adlı bədii və "Səkrək haqqında dastan" cizgi filmlərinə bəstələdiyi musiqidə ney alətinə xüsusi önəm verilmişdir.

Dövrümüzün görkəmli bəstəkarı, xalq artisti, professor Aqşin Əlizadənin "Beşinci simfoniya"sı, "Ürək xatiratı" bədii, "Xəzər" sənədli filmlərinə yazdığı musiqi və "Abşeron bağları" kompozisiyası ney musiqi alətinin iştirakı ilə süslənmişdir.

Almaniyada yaşayan bəstəkar, həmyerlimiz, xalq artisti, professor Firəngiz Əlizadənin "Dərviş" və "Çarpazlaşma" əsərlərinin ney alətiylə də ifası dünyanın bir çox məşhur konsert salonlarında səslənmişdir.

Ölməz bəstəkar, xalq artisti Emin Sabitoğlunun "Mənim üçrəngli dünyam" sənədli filminə bəstələdiyi müsiqidə ney alətinin ifası səmimiliyi artırmış, təsiredici qüvvəni çoxaltmışdır.

Xalq artisti, ölməz saz ustası Rafiq Babayevin "Azərbaycan min il bundan qabaq", "Yüksək səma altında" sənədli, "Göz qabağında şeytan" bədii və "Basat Təpəgözə qalib gəlir" cizgi filmlərinə bəstələdiyi musiqidə ney alətindən istifadə etməsiylə milli ruhun müasir dinləyiciyə çatdırmağın orijinal yolunu tapmışdır.

Tanınmış bəstəkar, xalq artisti, professor Ramiz Mirişli "Sahilsiz gecə" adlı bədii filminə bəstələdiyi musiqidə ney alətindən istifadə etməklə mövzunun gözəl illüstrasiyasına nail olmuşdur.

Gözəl bəstəkar, əməkdar artist Eldar Mansurovun "Şairin səsi" sənədli filminə yazdığı musiqi və "Şərqin səhəri" kompozisiyasında ney musiqi alətindən istifadə olunmasaydı bu qədər sevilməzdi.

İstedadlı bəstəkarlarımızdan Aydın Əzimovun "Qətl günü" bədii filminə və "Tut ağacı" mahnısına, Rafiq Əliyevin isə "Sərhəd" və "İnteryer" sənədli filmlərinə bəstələdikləri kino musiqisi məxsusi olaraq ney musiqi alətinin ifası üçün nəzərdə tutulmuşdur.

Türkiyədə yaşayan həmyerlimiz, istedadlı gənc bəstəkar İlyas Mirzəyevin "Ney ilə simfonik orkestr üçün konsert" əsəri dünyanın bir çox ölkələrinin böyük simfonik orkestrlərində ifa olunmuş və geniş şöhrət qazanmışdır.

Tanınmış musiqiçi, gözəl bəstəkar, xalq artisti, professor Siyavuş Kəriminin incə zövqlə etdiyi gözəl oranjimanlarında bu alətdən böyük istedadla istifadə olunmuşdur. Rəhbərlik etdiyi Azərbaycan Milli Konservatoriyasında ney musiqi alətinə elmi şəkildə yanaşmaya xüsusi diqqət yetirmişdir. Konservatoriyada "Milli musiqi alətlərinin araşdırılması" elmi-tədqiqat laboratoriyasında ney alətinin nəzəri şəkildə öyrənilməsi, bərpası, təcrübi imkanlarının genişləndirilməsi və istehsalına qayğı ilə yanaşılır.

Yuxarıda dediklərimizdən belə nəticəyə gələ bilərik ki:

a) Ən qədim musiqi aləti kimi ney Yaxın Şərqdə yaranmışdır. Hind-Çin ölkələriylə ticarət əlaqələri olduğu üçün bu ölkələrə gedib çıxa bilmişdir.

b) Əfsanə və rəvayətlərdə ney musiqi alətinə xüsusi diqqət olmuşdur. Onun həzin, insan ününə bənzər ürəyəyatımlı səsi, təsiredici əfsanə süjetlərini yaratmışdır. Sonralar şair və yazıçılar bu süjetlərdən öz əsərlərində istifadə etmişlər.

c) Müqəddəs kitablarda, Peyğəmbər hədislərində ney musiqi alətinin adı çəkilir. Biz bu mətnlərlə tanış olduqca ney musiqi alətinin inkişaf tarixini, fəlsəfəsini açıqlaya bilərik.

d) Azərbaycan minatür sənəti nümunələrinə nəzər yetirdikdə, başqa musiqi alətləri ifaçıları ilə yanaşı neyçalan obrazını da öncül yerlərdə görmək mümkündür. Onların görünüşündəki hər bir hərəkət rəmzi xarakter daşıyır.

e) Klassik Şərq və Azərbaycan ədəbiyyatında ney musiqi aləti həmişə doğru danışan əzabkeş aşiq simvolu kimi göstərilir.

f) Ən qədim zamanlardan XX yüzilliyin əvvəllərinə qədər ney aləti Azərbaycan musiqisində əsas yerlərdən birini tutmuşdur. Avropa alətlərindən qarmon və klarnetin musiqimizə tətbiqi ney alətinin mövqeyini zəiflətmişdir. Bu hal XX əsrin səksəninci illərinədək davam etmişdir.

h) XX əsrin səksəninci illərindən günümüzədək ney musiqi alətinə xüsusi diqqət və qayğı bərpa olunmuş, orkestr və ansamblarda öncül yerlərdə istifadə edilmiş, elmi şəkildə öyrənilməsinə başlanılmışdır.